AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**KƏMALƏ SEYFULLA QIZI DADAŞOVA**

# NEFT – QAZ KOMPLEKSİNDƏ MƏHSULUN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN TƏŞKİLATİ – İQTİSADİ MƏSƏLƏLƏRİ

**İxtisas: 5312.01─ Sahə iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2013**

Dissertasiya işi ARDNŞ-nin "Neftqazelmitədqiqatlayihə" İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər**: Iqtisad elmləri doktoru Q.Ə.Səfərov

**Rəsmi opponentlər:** Iqtisad elmləri doktoru B.S.Xıdırov
iqtisad üzrə fəlsəfə doktoru
K.N.Abdullayev

**Aparıcı təşkilat:** **İqtisadi İnkişaf Nazirliyi**
**İqtisadi İslahatlar**
**Elmi-Tədqiqat İnstitutu**

Müdafiə «21 » .06... 2013- cü il tarixində saat - da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdində FD 01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1143, Bakı şəhəri, H.Cavid prospekti 31, 2-ci mərtəbə, AMEA İqtisadiyyat İnstitutu
Dissertasiya işi ilə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» _______2013-cü ildə göndərilmişdir.

FD.01.181 Dissertasiya Şurasının
Elmi katibi, iqtisad üzrə
fəlsəfə doktoru,dosent **G.S. Hacıyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrində rəqabətqabiliyyətli məhsul istehsalı ən vacib məsələlərdən biridir. İctimai istehsalın səmərəliliyinin artırılması zərurəti nəinki istehsalın intensivləşdirilməsi-ni, həmçinin məhsul və xidmətlərin keyfiyyətinin daim yüksəldilməsini tələb edir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatı yolunu seçmişdir, bu isə xüsusilə sənayedə istehsal münasibətlərində ciddi problemləri ortaya qoymuşdur. Belə problemlərdən biri məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin təmin edilməsidir. Ölkədə bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması istehlakçı və istehsalçının qarşılıqlı münasibətlərinə yeni məzmun vermişdir. Hazırda ön plana məhsulun kefiyyətini təyin edən meyarlar, başlıcası isə rəqabət qabiliyyəti çıxmışdır.

Məhsulun keyfiyyəti və rəqabətqabiliyyətliliyi neft-qaz kompleksi üçün də çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, keçmiş İttifaq, həm də müstəqillik dövründə neft-qaz kompleksi ölkəmizin iqtisadi qüdrətinin formalaşması və möhkəmlənməsində mühüm rol oynamış və digər baza sənaye sahələrinin də inkişafını şərtləndirmişdir. Təsadüfi deyil ki, hazırda ölkə büdcəsinin mədaxil hissəsinin yarıdan çoxu məhz neft-qaz kompleksinin iqtisadi fəaliyyətinin nəticələri hesabına formalaşır.

Azərbaycanda əsası "Əsrin müqaviləsi" ilə qoyulan və sonrakı neft müqavilələri ilə inkişaf etdirilən yeni neft strategiyası ölkədəki davamlı, dayanıqlı və dinamik inkişafın reallaşmasında mühüm rol oynayır. Ölkənin ixrac-idxal balansında da neft-qaz kompleksinin məhsulları prioritet təşkil edirlər. Beynəlxalq bazara çıxış, dünya iqtisadiyyatına inteqrasiya, transmilli şirkətlərinin ölkənin karbohidrogen resurslarına hədsiz marağı, digər vacib məsələlərlə yanaşı, neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün mövcud problemlərin müzakirəsini və həllini tələb edir.

Odur ki, neft-qaz kompleksində istehsalın səmərəliliyi, məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin mövcud vəziyyətinin öyrənilməsi, rəqabət qabiliyyətliliyin formalaşmasının nəzəri–metodoloji məsələlərinin təhlili əsasında keyfiyyətin və rəqabətqabiliyyətinin qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsi, habelə keyfiy-

yətin və rəqabət qabiliyyətinin yüksəldilməsi və idarə edilməsinin təşkilati-iqtisadi məsələlərinə həsr olunması təqdim olunan dissertasiya işinin mövzusunu aktual edir.

**Problemin işlənmə vəziyyəti.** Azərbaycan iqtisadçı alimləri, həmçinin keçmiş sovet iqtisadi məktəbinin görkəmli nümayəndələrinin bu problemə müxtəlif səpgili yanaşmaları və əldə etdikləri mühüm elmi-təcrübi nəticələr tədqiqatların əsasını təşkil edir. Belə ki, sənayenin, o cümlədən neft-qaz kompleksinin müxtəlif sahələrində A.A.Nadirov, Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, A.A.Ələsgərov və A.F.Musayev, M.C.Atakişiyev, T.N.Əliyev, Ş.Ə.Səmədzadə, Q.Ə.Səfərov, B.S.Xıdırov, E.M.Hacızadə, V.M.Vəliyev, İ.H.Alıyev, M.M.Fərzəliyev, G. Yüzbaşova, R.M. Əliyev, V. F. Abasov, M. L. Əfəndiyev , хариси алимлярдян Q. Q. Azqoldov, A. D. Nikiforov ,V. V. Okrepilov və digərlərinin elmi əsərlərində də müəyyən qədər işıqlandırılmışdır.

Lakin bu tədqiqatlar ümumi halda məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinə həsr olunduğundan neft-qaz kompleksi məhsulunun xüsusiyyətlərini tam əks etdirmir və bu gün dünyada neft-qaz bazarında baş verən prosesləri dərindən əhatə etmirlər. Halbuki, neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin yüksəldilməsi probleminin təhlili sistemli və kompleks yanaşma, habelə müasir dünya təcrübəsindən faydalanma tələb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi məhsulun rəqabət qabiliyyətinin nəzəri əsaslarının və mövcud vəziyyətinin təhlili əsasında, onun yüksəldilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənməsindən ibarətdir. Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- “keyfiyyət və rəqabətqabiliyyətlilik” kateqoriyalarının mahiyyəti və məzmunu araşdırmaq;
- neft-qaz kompleksinin etibarlığı və məhsulun keyfiyyət səviyyəsinin tədqiq etmək;
- neft-qaz kompleksi məhsullarının keyfiyyət göstəriciləri sistemi və keyfiyyətin idarə edilməsini araşdırmaq;
- rəqabətqabiliyyətliliyin əsas əlamətləri və məhsulun istehsal xərcləri arasında əlaqələri müəyyən etmək;
- neft-qaz kompleksinin ölkənin sosial-iqtisadi inkişafındakı rolunu müəyyənləşdirmək;

– məhsulun keyfiyyət meyarını və neft-qaz kompleksində riskləri təhlil etmək;
– neft-qaz kompleksində məhsulun keyfiyyətinin yüksəldilməsi tədbirlərinin səmərəliliyini tədqiq etmək;
– məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi yollarını müəyyənləşdirmək;
– neft-qaz kompleksində məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində təklif və tövsiyələri hazırlamaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının neft-qaz kompleksi, onun müəssisələri və bu müəssisələrin buraxdığı məhsullardır. Tədqiqatın predmetini neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabətqabiliyyətliliyin idarə olunması məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını.** Tədqiqatın nəzəri-metodoloji əsasını iqtisad elminin klassik nəzəri müddəaları, respublika və xarici ölkə tədqiqatçılarının bu problemə həsr edilmiş elmi əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, ölkənin soial-iqtisadi inkişafına dair Dövlət Proqramları, qanunvericilik aktları və digər normativ-hüquqi sənədlər təşkil edir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin yerinə yetirilməsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, ayrı-ayrı neft-qazçıxarma müəssisələrinin, "Neftqazelmitəd-qiqatlayihə" institutunun hesabat materiallarından istifadə edilmişdir.

Tədqiqat zamanı müqayisəli təhlil, sistemli və kompleks yanaşma, məntiqi təhlil, çox amilli modelləşdirmə, analiz və sintez və digər tədqiqat üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

– məhsulun keyfiyyəti və rəqabətqabiliyyətliliyi kateqoriyalarının məzmunu və mahiyyəti dəqiqləşdirilmiş, neft-mədən avadanlığının keyfiyyət göstəricilərinin təsnifatı təklif olunmuşdur;
– neft-qaz kompleksində avadanlıqların istismar sisteminin təhlili əsasında keyfiyyətin iyerarxik quruluşu təklif edilmiş və idarəetmə səviyyəsindən asılı olaraq onun elementləri arasındakı əlaqələr müəyyən edilmişdir;

– məhsulun rəqabətqabiliyyətliliyini səciyyələndirən amillər arasında korrelyasiya asılılığı müəyyən edilmişdir;
– neft-qaz kompleksində keyfiyyətin kompleks göstəricisi və rəqabətqabiliyyət-liliyin inteqral meyarının təyini üsulu təklif edilmişdir;
– neft-qaz kompleksinin müxtəlif idarəetmə səviyyələrini səciyyələndirən risklər araşdırılmış və onların təsnifatı müəyyənləşdirilmişdir;
– keyfiyyətin yüksəldilməsi məqsədilə neftin texnoloji hazırlanması zamanı maya dəyəri və digər təsiredici amillər arasında çoxamilli korrelyasiya-reqressiya əlaqələri müəyyən edilmişdir;
– məhsulun keyfiyyəti və rəqabətqabiliyyətinin idarəedilməsinin təkmilləşdirilməsi məqsədilə elmi əsaslandırılmış təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** İşdə əsaslandırılan nəzəri-metodoloji müddəalar, təklif və tövsiyələr neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabətqabiliyyətinin qiymətləndirilməsində, habelə bu sahədə idarəetmə qərarlarının qəbulunda istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiya işinin əsas nəticələri 2004–2012-ci illərdə beynəlxalq və respublika səviyyələrində keçirilmiş müxtəlif simpozium, konfrans və seminarlarda məruzə olunmuş və müzakirə edilmişdir.

**Məqalələrin nəşri.** Dissertasiya işinin mühüm nəticələrinə həsr edilmiş 30-a yaxın elmi məqalə və tezislər dərc olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, əsas nəticələr və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İş 164 səhifə kompüter mətninində şərh olunmuşdur, işdə 9 şəkil, 6 cədvəl vardır. Dissertasiyada 104 adda ədəbiyyat mənbəsi istifadə edilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsədi və həll ediləcək məsələləri formalaşdırılmış, işin praktiki əhəmiyyəti və elmi yenilikləri göstərilmişdir.

Dissertasiyanın **”Məhsulun rəqabətqabiliyyətliliyinin nəzəri-metodoloji məsələləri”** adlanan **birinci fəslində** neft-qaz kompleksi məhsulunun keyfiyyət göstəriciləri sistemi və keyfiyyətin idarəedilməsinin mühüm xüsusiyyətləri araşdırılmışdır. Qeyd olunur ki, neft-qaz kompleksində keyfiyyətin idarəedilməsi bir çox üsul və vasitələri özündə cəmləşdirir və layihələndirmə, istehsal və satış mərhələsində yüksək keyfiyyətin təmin edilməsinə imkan verir. Keyfiyyətin idarəedilməsi üçün onun qiymətləndirilməsi vacibdir, bu məqsədlə ierarxiya təhlilindən istifadə olunması təklif edilmişdir.

Məhsulun keyfiyyətini qiymətləndirmək baxımından əsas göstəricilər sistemi təhlil edilərək neft-mədən avadnlıqlarının keyfiyyət göstəricilərinin təsnifatı işlənmişdir. Bu təsnifat müqayisəli təhlil zamanı məhsulun keyfiyyətinin yaxşılaşdırılması tendensiyasının hansı texniki parametr hesabına yarandığını təyin etməyə, məhsulun keyfiyyət səviyyəsinin kompleks qiymətləndirilməsini isə yekun iqtisadi göstəricilər üzrə müəyyən etməyə imkan verir.

Məlumdur ki, rəqabətqabiliyyətli məhsul istehsalının əldə edilməsi istehsal xərclərini azaltmaq və məhsulun keyfiyyətini yüksəltməklə bağlıdır. Məhsulun rəqabətqabiliyyətlilik meyarının kəmiyyətcə qiymətləndirilməsi üçün onun qiymətinin yuxarı həddinin faktiki dəyərinə olan nisbəti istifadə olunur:

$$RQ = \frac{Q_{yh}}{Q_f}, \qquad (1)$$

burada $RQ$ — rəqabətqabiliyyətliliyin kəmiyyət meyarı; $Q_{yh}$ — məhsulun qiymətinin yuxarı həddi, man; $Q_f$ — məhsulun faktiki qiyməti, man.

Beləliklə, rəqabətqabiliyyətinin idarəedilməsi bu üç amilin optimal nisbətinin təmin edilməsi deməkdir. Bunlardan hər biri çoxamilli səviyyəyə malikdir və onlara müəkkəb obyektin idarəedilməsi kimi baxılmalıdır. Rəqabətqabiliyyətli məhsul istehsalının mühüm amilləri arasında müəyyən asılılıq vardır və variasiya etməklə məhsulun rəqabətqabiliyyətliliyini yaxşılaşdırmaq yollarını təyin

etmək olar. Ümumi halda bu amillər arasındakı asılılığı belə göstərmək olar:

$$R_{məmulat} = (\frac{Q}{MD} - 1) \rightarrow max , \qquad (2)$$

Burada *Q* – məhsulun faktiki qiyməti, *MD* – məhsulun maya dəyəridir. Bu düstura görə istehsal olunan məhsulun rentabelliyinin təyinində üç hal mümkündür: 1-ci halda *MD>Q*, onda $\frac{Q}{MD} < 1$ olacaq və *(2)* düsturunda $(\frac{Q}{MD} - 1) < 0$ olacaqdır. Bu isə məhsulun istehsalının rentabelli olmadığına işarədir. 2-ci halda *Q=MD*, onda *(2)* düsturunda $\frac{Q}{MD} = 1$ və $(\frac{Q}{MD} - 1) = 0$ olacaqdır, bu da istehsal edilən məhsulun keyfiyyəti haqqında nəticə çıxarmağa imkan vermir; 3-cü halda *Q>MD*, onda $\frac{Q}{MD} > 1$ olacaq və *(2 )*düsturunda $(\frac{Q}{MD} - 1) > 0$ olacaqdır, bu halda istehsalçı üçün keyfiyyətli məhsul istehsalı iqtisadi nöqteyi nəzərdən böyük maraq doğurur.

Məhsulun rəqabətqabiliyyətlilik səviyyəsi *(K)* firmanın məhsulunun rəqabət-qabiliyyətlilik səviyyəsi göstəricisinin $(K_{öz})$ rəqibin $(K_r)$ uyğun göstəricisinə nisbəti kimi təyin edilə bilər və əgər $k>1$ şərti ödənilirsə, məhsul rəqabətqabiliyyətlidir. Neft hasilatının məhsul çıxışına təsirinin qiymətləndirilməsi, bu zaman hasilat xərclərinin də nəzərə alınması üçün keyfiyyətin kompleks göstəricilər sistemindən *(K)* istifadə olunur. Kompleks göstəricinin təyini neftin fiziki-kimyəvi xüsusiyyətlərinin statistik təhlili və əsas göstəricilər arasında empirik əlaqənin qurulması əsasında aparıla bilər.

Məlumdur ki, rəqabətqabiliyyətli məhsul istehsalında mühüm istiqamət istehsal xərclərinin azaldılmasından ibarətdir. İşdə 2006–2009-cu illərdə "Azneft" İB üzrə neft hasilatı maya dəyərinin dinamikası təhlili edilərək müəyyən edilmişdir ki, məhsulun maya dəyəri yüksəlməyə meyllidir. Əgər 2006-cı ildə 1 ton məhsulun maya dəyəri 38,97 man olmuşdursa, 2009-cu ildə 52,17 man və ya 13,80 man (33,87%) çox olmuşdur. Bu dövrdə neftin maya dəyəri quruda 144,34 man/ton-dan 226,44 man/tona çatmış və ya 56,88% artmışdır.

Dəniz neft yataqlarında maya dəyəri daha yüksəkdir, təhlil dövründə burada maya dəyəri 38,57% artaraq 2009-cu ildə 211,79 man/ton təşkil etmişdir. Bütün bunlar "Azneft" İB-də keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı imkanlarını məhdudlaşdırır.

Təhlil göstərir ki, layihə-tədqiqat işlərinin başlanmasından ilkin neft və qazın alınmasına qədər orta hesabla 4–6 il keçir. Deməli, neft-qaz kompleksində rəqabətqabiliyyətli və keyfiyyətli məhsul istehsalı və yataqların mənimsənilməsi müəyyən risklə bağlıdır. Dissertasiya işində neft-qaz kompleksinə xas olan risklərin təsnifatı işlənmiş, onların azaldılması, habelə itki və təhlükələrdən yankeçmə yolları göstərilmişdir.

Neft-qaz kompleksində rəqabətqabiliyyətli məhsul istehsalının mühüm amillərindən biri də məhsulun sulaşmasıdır. Sulaşma zəncirvari reaksiya ilə neft-qaz kompleksində məhsul vahidinə çəkilən xərclərə bir neçə istiqamətdə təsir edir. Riyazi-statistik modelin köməyi ilə "Azneft" İB-də sulaşma əmsalının quyuların sayından asılılığı öyrənilmiş və müvafiq reqressiya tənliyinin $R$ əmsalının yüksək qiyməti sulaşma və quyuların sayı arasında sıx əlaqənin mövcudluğunu göstərir. Deməli, quyunun məhsuldarlığının artırılmasına yönəldilmiş tədbirlərdə bu amil nəzərə alınmalıdır. Quru və dəniz yataqlarının quyu fondundan istifadənin riyazi-statistik təhlili belə qənaətə gəlməyə imkan verir ki, quyu fondundan səmərəli istifadə keyfiyyətin idarə olunmasında mühüm rol oynaya bilər.

Neft-qaz kompleksi avadanlıqlarının etibarlığının mövcud üsul və vasitələrlə təmin edilməsi, layihələndirmə, istehsal və istismar mərhələlərində məhsulun keyfiyyətinin yüksəldilməsi üçün istehsal xərclərinin aşağı salınması yolları işdə müfəssəl araşdırılmış və müvafiq tövsiyələr işlənmişdir.Yapon mütəxəssislərinin yanaşması əsasında keyfiyyət xərclərinin yeni optimal modeli təklif olunmuşdur.

Qeyd etmək lazımdır ki, keyfiyyətin idarəolunması tədbirlərinin səmərəliliyi də işdə ətraflı araşdırılmışdır. Keyfiyyətin yüksəldilməsinə yönəldilmiş tədbirləri bir sistem kimi qəbul etsək, onda iqtisadi səmərə (İS) keyfiyyətin iqtisadi nəticələri ilə (İN), məhsulun istehsalı (Mİ) və istismarına ($Mİ_s$) çəkilən xərclərin cəminin fərqinə bərabər olacaqdır:

$$İS = İN - (Mİ + Mİ_s) (3)$$

Əgər bu sistemə hər hansı vahid məhsulun istehsalı aktı kimi baxsaq və onun satış qiymətini (SQ) nəzərə alsaq, onda (4) düsturu belə olacaqdır:

$$İS = İN - (Mİ + Mİ_s) \pm SQ = (SQ - Mİ) + [İN - (SQ + Mİ_s)], \quad (4)$$

burada (SQ+$Mİ_s$) — istehlak qiyməti, (SQ–Mİ) — istehsalın iqtisadi səmərəliliyi, [İN–(SQ+$Mİ_s$)] — istismarın iqtisadi səmərəliliyidir.

İşdə, sistemli və kompleks yanaşmaya əsaslanaraq sistemin “giriş”, “proses” və “çıxış” elementlərinin təkmilləşdirilməsinə yönəlmiş istənilən texniki-təşkilati tədbirin iqtisadi səmərəsinin hesablanması üçün alternativlər təklif olunur.

Dissertasiya işinin **“Neft-qaz kompleksi inkişafının müasir vəziyyəti və məhsulun keyfiyyəti məsələləri”** adlanan **ikinci fəslində** neft-qaz kompleksinin mövcud durumu təhlil edilmişdir. Qeyd olunur ki, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası və sürətli sosial-iqtisadi inkişafı, ölkəmizin nəhəng neft-qaz ehtiyatlarına sahib olması ilə əlaqədardır. Bu imkanlardan daha səmərəli istifadə edərək neft-qaz kompleksində rəqabətqabiliyyətli məhsul istehsalı ölkənin milli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir.

Neft hasilatının dinamikasının təhlili göstərmişdir ki, 2002–2009-cu illər ərzində “Azneft” İB-də hasilat 7,3% azalmışdır. Bunun əsas səbəbləri istismar edilən yataqların işlənmənin son həddinə keçməsi, yataqların geoloji şəraitlərinin pisləşməsi və istehsal fondları, əsasən də quyu fondundan istifadənin qeyri-qənaətbəxş olmasıdır. Hasilatın azalması əsasən quruda fəaliyyət göstərən neftqazçıxarma müəssisələri üçün səciyyəvidir.

Cədvəl 1.

Neft-qazcıxarma müəssisələrində neft hasilatının dinamikası (birgə müəssisələrsiz) min tonla

| Neftqazçıxarma müəssisələri | *i l l ə r* | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
| “Neft Daşları” | 819,6 | 826,5 | 821,3 | 821,4 | 898,5 | 942,3 | 899,7 | 874,7 |
| 28 may | 5668,4 | 5791,7 | 5717,5 | 5658,0 | 5521,2 | 5334,5 | 5282,6 | 5256,3 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| “Abşeronneft” | 166,8 | 163,6 | 163,6 | 166,6 | 169,8 | 162,8 | 169,9 | 166,2 |
| N.Nərimanov Adına | 288,4 | 279,8 | 319,9 | 317,5 | 458,1 | 460,7 | 438,9 | 382,2 |
| “Bulba dəniz” | 77,0 | 72,0 | 77.0 | 77,3 | * | * | * | * |
| “Qum adası” | 163,8 | 161,3 | 170,6 | 171,2 | 164,3 | 133,9 | 62,2 | 80,4 |
| Dənizdə - cəmi | 7384,0 | 7294,9 | 7269,9 | 7212,0 | 7211,9 | 7034,2 | 6853,3 | 6759,8 |
| “Balaxanıneft” | 221,4 | 213,9 | 214,0 | 220,3 | 219,4 | 217,8 | 212,8 | 298,9 |
| Ə.Əmirov adına | 89,4 | 81,0 | 84,8 | 84,7 | 81,0 | 81,5 | 77,9 | 68,4 |
| “Bibi - Heybətneft” | 122,4 | 119,8 | 129,7 | 131,6 | 141,6 | 131,5 | 121,3 | 116,0 |
| Z.Tağıyev adına | 64,6 | 61,7 | 62,6 | 62,9 | 71,5 | 62,3 | 67,5 | 64,4 |
| “Siyəzənneft” | 50,2 | 48,9 | 48,9 | 42,2 | 45,5 | 50,1 | 48,5 | 44,7 |
| “Muradxanlı” İNM | 33,4 | 30,5 | 30,5 | 30,4 | 26,0 | 29,4 | 32,1 | 32,4 |
| Quruda - cəmi | 581,4 | 555,8 | 570,5 | 572,1 | 585,0 | 572,6 | 560,1 | 624,8 |
| “Azneft” İB. | 7965,4 | 7850,7 | 7840,4 | 7784,1 | 7796,9 | 7606,8 | 7413,4 | 7384,6 |

Mənbə:Müəssisələrin hesabat göstəriciləri

Qeyd:*2006 – ildə “Bulla dəniz” və N. Nərimanov adına NQÇİ – i birləşmişdir

Neft hasilatının stabilləşdirilməsi və artırılması zərurəti dəniz, həm də quruda işlənilən və istismar edilən yataqlarda yeni iqtisadi yanaşma və neft-qaz kompleksinin bazar iqtisadi münasibətlərinə uyğun qurulmasını və rəqabətqabiliyyətli məhsul istehsalı prinsiplərinə yiyələnməsini tələb edir. Neft-qaz kompleksində yeni neft siyasətinin reallaşdırılması digər sənaye sahələrinin inkişafına təkan verir. Ölkəyə yeni texnika və texnologiyaların axını da neft-qaz

kompleksi məhsullarının keyfiyyətinin və rəqabətqabiliyyətinin təmin edilməsi üçün münbit şərait yaradır.

Neft-qaz kompleksi yatağın lay məhsulunun çıxarılması, emalı və nəqlini təmin edən, məhsulu əmtəə vəziyyətinə gətirən, qarşılıqlı əlaqəli texnoloji, energetik, nəqliyyat və digər avadanlıq, qurğu və kommunikasiyaları birləşdirən bir sistemdir. Bu kompleksə mürəkkəb bir sistem kimi baxaraq onun elementlərinə müxtəlif növ avadanlıqlar, xidmətedici heyət, ətraf mühit, istehsalın digər amil və şərtləri daxil oluna bilər. Kompleksin idarə olunmasının optimal texnoloji sxemini seçərkən sistem və onun elementləri arasındakı əlaqələr nəzərə alınmalıdır. Texnoloji və digər təyinatlı obyektlərin yerləşməsi və optimal parametrləri hasil edilən neft və qazın çıxarılması, yığılması və emalının minimal xərclərlə başa gəlməsini təmin etməlidir.

Beləliklə, optimal istehsal kompleksi verilən yatağın şəraiti və konkret xüsusiyyətlərini nəzərə almaqla yaradıla bilər. Məhz sistemin bu göstəricilərindən yatağın işlənməsinin digər şərtləri asılıdır. İşlənmənin parametrləri və xüsusən də yataqda hasilatın dəyişməsindən isə neft-qaz kompleksində istehsalın səmərəliliyi, məhsulun keyfiyyəti və rəqabətqabiliyyəti asılıdır.

Neft-qaz hasilatı fasiləsiz və qarşılıqlı əlaqəli proses olduğundan avadanlıqların etibarlılıq göstəricisi mühüm əhəmiyyət kəsb edir. Belə ki, neft-qaz kompleksinin hər hansı bir elementinin dayanması bütövlükdə sistemin səmərəliliyini azaldır. Neft-mədən avadanlığı keyfiyyətinin yüksəldilməsi istiqamətinin seçilməsi, səmərəliliyin təyin edilməsi və bütövlükdə istismar sisteminin təhlilində ierarxik sistem anlayışından istifadə edilməsi təklif olunur.

İerarxik sistemdə (*n-2*) səviyyəsi aralıq məhsulun keyfiyyətinin yüksəldilməsini göstərir, bu son hazır məhsul sisteminə daxil olan alt sistemin elementidir. Hazır məhsulun keyfiyyətinin artırılmasına ((*n-1*) səviyyəsi), son məhsul alt sisteminin elementi kimi baxılır və o da son hazır məhsul növü kompleks sisteminə daxil olur. Son hazır məhsulun keyfiyyətinin artırılması (*n*–ci səviyyə) hazır məhsul növlərinin kompleks alt sistemlərinin elementi kimi qəbul olunur və öz növbəsində sistemə daxil olur. Neft-qaz kompleksini də özündən yuxarıdakı (*n+1*) səviyyəsinin bir elementi saymaq olar.

İşdə neft-qaz kompleksində rəqabətqabiliyyətli məhsul istehsalının mühüm amili olan əsas istehsal fondlarının strukturunun səciyyəvi xüsusiyyətləri müəyyən edilmişdir. Təyin olunmuşdur ki, “Azneft” İB müəssisələrində əsas fondların strukturunda tərkib elementləri arasında hiss olunan fərqlər vardır. Belə ki, tikililər - dəniz yataqları üzrə 84,1%, quru yataqlrı üzrə isə 65,4% təşkil edir və bu fərq əsasən hidrotexniki qurğuların hesabınadır. Tikililərin 88,5%- dən çoxu quyuların payına düşür, bu da quyuların dəyərinin yüksək olmasından irəli gəlir. Eyni zamanda digər əsas fondlar - maşın və avadanlıqlar isə cəmi 5–10% xüsusi çəkiyə malikdir.

Beləliklə, neft-qaz quyuları fondların aktiv hissəsinin ən vacib elementlərindən biri olmaqla, istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas mənbəyi sayıla bilər. Təhlil göstərir ki, 2004–2009-cu illərdə bütövlükdə “Azneft” İB üzrə fəaliyyətsiz quyu fondu 19,5 ÷ 25,2% civarında dəyişmişdir. Odur ki, quyu fondu ciddi təhlil edilməli, onların istismara qaytarılması tədbirləri işlənməli və həyata keçirilməlidir. Məhz quyu fondundan səmərəli istifadə edilməsi, bunun da nəticəsində xərclərin azaldılması, keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalını həyata keçirilməsi ilə mümkün ola bilər.

Neft-mədən avadanlıqlarının keyfiyyəti və etibarlılığının təmin edilməsi bir neçə mərhələni əhatə edən mürəkkəb texnoloji proseslərdən keçməlidir. Avadanlıqların keyfiyyəti müəyyən göstəricilər sistemi ilə səciyyələnir və neft-mədən avadanlıqları üçün təyinat, etibarlıq, imtinasızlıq, uzunömürlülük göstəriciləri meyar kimi qəbul edilə bilər. Avadanlıqların keyfiyyəti baxımından nef-qaz kompleksini ən çox maraqlandıran istismar mərhələsidir.

Beləliklə, neftə və qaza daxili və xarici bazarda tələbatın artması, ölkənin enerji təhlükəsizliyinin təmin edilməsi neft-mədən avadanlıqlarının keyfiyyətinə yeni və sərt tələblər irəli sürür. Bazar münasibətləri şəraitində maşınqayırma müəssisələri, beynəlxalq standartların tələblərinə uyğun məhsul istehsal etməlidirlər. Deməli, rəqabətqabiliyyətli məhsul istehsalı hazırda sahənin ən prioritet problemi kimi qoyulmalıdır.

Dissertasiyanın **“Neft-qaz kompleksində məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsinin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi”** adlanan üçüncü fəslində neft-qaz kompleksində məhsulun keyfiyyətinin və rəqabətqabiliyyətinin

yüksəldilməsi yolları araşdırılır. Qeyd olunur ki, mürəkkəb və çox sahəli bu kompleksdə yüksək keyfiyyətə nail olmaq üçün imtinasız, təmirəyararlı, ekoloji və təhlükəsizlik göstəricilərinə malik mükəmməl və rəqabətədavamlı avadanlıqlar yaradılmalıdır. Bu isə bir sıra təşkilati və texniki tədbirlərin məcmusu olan keyfiyyət sistemi ilə təmin edilə bilər.

Keyfiyyət sistemi hər bir müəssisənin konkret şəraiti nəzərə alınmaqla işlənsə də məhsulun "həyat tsiklinin" bütün mərhələlərini əhatə etməlidir. Neft-qaz kompleksində keyfiyyət sisteminin təmin etdiyi məsələlər işdə ətraflı sadalanmışdır. Məhsulların beynəlxalq standartlara uyğunluğunu təmin etmək üçün yerinə yetirilməsi vacib hesab ediliən tədbirlərin geniş spektri dissertasiya işində şərh olunmuşdur.

Neft-qaz kompleksində rəqabətqabiliyyətli məhsul istehsalının mühüm istiqamətlərindən biri də ətraf mühitin qorunması və iqtisadi fəaliyyətin ekoloji təminatıdır. Neft-qaz kompleksində ekoloji problemlərin yaranmasının başlıca səbəbi mövcud şərait və istifadə edilən texnika və texnologiyanın müvafiq İSO beynəlxalq standartlarının tələblərinə cavab verməməsidir. Dissertasiyada neft-qaz kompleksində ekoloji problemlərin həlli üçün kompleks təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi təklif edilmişdir.

Təklif olunan təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi neft-qaz kompleksində ekoloji problemləri həll etməyə, onların mənfi təsirini məhdudlaşdırmağa və ekoloji riskləri azaltmağa xidmət edə bilər. Bununla yanaşı, göstərilən tədbirlər neftmaşınqayırma sahəsində beynəlxalq standartların tələblərinə uyğun məhsul istehsal edilməsinə və son nəticədə neftqaz kompleksinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə imkan verər.

Məlumdur ki, neft hasilatı bir çox texnoloji prosesləri özündə cəmləşdirir, onlardan biri də neftin texnoloji hazırlanmasıdır. Bu proses neft itkisi, ballast və mexaniki qarışıqların azaldılmasına yönəlmişdir. Neft hasilatında məhsulun maya dəyərində neftin texnoloji hazırlanması xərcləri böyük xüsusi çəkiyə malikdir. Işdə "Azneft" İB üzrə 2004–2009-cu illərdə quru yataqlardan hasil edilən neftin texnoloji hazırlanması prosesinə dair statistik məlumatlar təhlil edilmişdir.

Cədvəl 2-də Azərbaycanda quru ərazisində istismar edilən yataqlarda "neftin texnoloji hazırlanması" prosesi ilə əlaqədar statistik məlumat verilmişdir.

Cədvəl 2.

Azneft İstehsalat Birliyində neftin texnoloji hazırlanması xərcləri

| Göstəricilər | Ölçü vahidi | I l l ə r | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
| Neft hasilatı həcmi | min ton | 780,0 | 761,4 | 629,4 | 572,6 | 560,1 | 622,8 |
| Məhsulun sulaşması | % | 93,8 | 94,1 | 94,2 | 94,2 | 93,7 | 94,3 |
| 1t neftin maya dəyəri | % | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Neftin texnoloji hazırlanması xərcləri | % | 1,61 | 1,65 | 1,72 | 2,06 | 2,20 | 2,41 |

Mənbə: Azneft İstehsalat Birliyinin hesabatı

Neftin texnoloji hazırlanmasının maya dəyərinə amillərin qarşılıqlı əlaqəsini öyrənmək üçün əlverişli üsul kimi korrelyasiya-reqressiya metodundan istifadə edilmışdir. Funksiya-amil kimi emalın maya dəyəri (Y, man/ton), arqument-amillər kimi isə məhsulun həcmi ($X_2$, %), deemulqatorun xüsusi sərfi ($X_3$, qr/t) və neftin emal keyfiyyəti (duzun miqdarı, $X_4$) qəbul edilmişdir. Verilənlərin fərdi kompüterdə xüsusi proqram əsasında reallaşdırılması nəticəsində emalın maya dəyəri ilə arqument – amillər arasında reqressiya asılılığı müəyən edilmişdir:

$$Y=0,038E+30-0,119E-0,1X_1-3,479X_2+0,043E-0,1X_3-0,092E-0,1X_4 \quad (5)$$

İşlənmiş riyazi model neftin texnoloji emalı xərclərinin azaldılması ehtiyatlarının aşkar edilməsi, material resurslarından sə-

mərəli istifadə olunması, keyfiyyətinin artırılması və son nəticədə rəqabətqabiliyyətli məhsul istehsalı üçün imkanlar yaradır.

Keyfiyyətin yüksəldilməsi məqsədinə nail olmaq üçün idarəçilik fəaliyyəti, idarəolunan obyektə təsirin üsul və qaydaları işlənməlidir və bunlar keyfiyyətin idarəedilməsinin (KİE) metodlarını təşkil edir. KİE ehtiva edir ki, keyfiyyətin yüksəldilməsi, təmin olunması və yaxşılaşdırılması hər bir müəssisənin, firmanın və şirkətin iqtisadi siyasətinin mərkəzində durmalıdır. Bu tələbləri təmin edən sistemli yanaşmada keyfiyyəti idarəetmənin səmərəliliyi işdə sadalanmış müəyyən prinsiplərə əsaslanmalıdır. İşdə həmçinin KİE sistemlərinin yaxşılaşdırılması üzrə bir sıra təşkilati-iqtisadi tədbirlər təklif olunmuşdur.

Beləliklə, neft-qaz kompleksində məhsulun rəqabətqabiliyyətliliyi sahənin iqtisadi inkişafın ən mühüm və prioritet istiqamətlərindən biri olmalıdır. Ölkəmizin dünya təsərrüfat sisteminə uğurlu inteqrasiyası və yeni bazar seqmentləri əldə etməsi məhz məhsulun rəqabətqabiliyyətliliyinin yüksəldilməsilə bağlıdır. Aparılmış tədqiqatlar neft-qaz kompleksində məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsi üçün bir sıra təşkilati-iqtisadi tədbirlərin hazırlanması və reallaşdırılmasına imkan verir.

## NƏTICƏ VƏ TƏKLİFLƏR

- Müəyyən edilmişdir ki, bazar münasibətləri şəraitində neft-qaz kompleksi qarşısında hasilatın sabitləşdirilməsi, ölkədə maye yanacağa tələbatın ödənilməsi, yeni yataqların istismara verilməsi, istismar edilən quyu fondunun artırılması, fiziki-kimyəvi təsir üsulları ilə layların neftveriminin yüksəldilməsi kimi mürəkkəb vəzifələr durur. Neft-qaz kompleksində hasilat şərtləri getdikcə mürəkkəbləşdiyindən neft–mədən avadanlıqlarının etibarlılığı və keyfiyyətinə yüksək tələblər qoyulur. Təyin olunmuşdur ki, neft-qaz kompleksi bir sıra spesifik xüsusiyyətlərə malikdir və bunlar özünü istismar edilən maşın və avadanlıqların, texnoloji qurğuların müxtəlifliyində və məhsulun keyfiyyətində büruzə verir. Sahənin özünəməxsus xüsusiyyətləri araşdırılaraq məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinin əsas istiqamətləri müəyyən edimişdir.
- Araşdırmalar göstərir ki, neft-qaz kompleksində məhsulun keyfiyyətinin təmin edilməsində hasilat, həm də emal sahələrində aparılan texnoloji proseslər böyük əhəmiyyət kəsb edir. Bu yanaşma xam neftin və ondan alınan məhsulların istehlak xüsusiyyətlərinin obyektiv əlaqəsinə və çəkilən istehsal xərclərinə əsaslanır. Məhsulun keyfiyyətinin kompleks göstəricisinin vahiddən böyük olması keyfiyyətin pisləşməsini və emal xərclərinin artmasını, vahiddən kiçik olması isə xammalın keyfiyyətinin yaxşılaşdırılması və bunun nəticəsində son məhsulun emal prosesinin ucuzlaşmasını səciyyələndirir. Neft-qaz kompleksində məhsulun rəqabətqabiliyyətliliyini səciyyələndirən ümumiləşdirilmiş (inteqral) meyar təklif olunmuşdur.
- Göstərilir ki, neft-qaz kompleksində məhsulun keyfiyyətini qiymətləndirərkən çəkilən xərclərin düzgün təsnifatı mühüm əhəmiyyət kəsb edir. Təklif olunan təsnifat Yaponiya mütəxəssislərinin yanaşmasına əsaslanır və bu konsepsiya keyfiyyət xərclərinin məhsulun maya dəyərindəki payını müəyyən etməyə imkan verir. Bu təsnifat xərclərdəki uyğunsuzluğun ləğvi, keyfiyyət xərcləri ilə keyfiyyət səviyyəsinin əlaqəsini tapmağa və xərclərin optimal modelini yaratmağa imkan verir.
- Sistemli və kompleks yanaşma əsasında neft-qaz kompleksində sistemin "giriş", "proses" və "çıxış" elementlərinin təkmilləşdirilməsinə yönəlmiş hər hansı texniki–təşkilati tədbirin iqtisadi səmərəsinin hesablanması üçün metodiki yanaşma təklif edilmişdir. Bu yanaşma

istehsalçı, həm də istehlakçıların əsas tələblərini nəzərə almağa imkan verir. Sistemli təhlil və kompleks yanaşma tətbiq edilməklə neftmədən avadanlıqlarının sertifikatlaşdırılması və keyfiyyətinin ekoloji təminatının yaxşılaşdırılması imkanları göstərilmişdir.
- Müəyyən edilmişdir ki, neft-qaz kompleksi hazırda inkişafın yeni mərhələsinə qədəm qoymuşdur və ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır."Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycanda yeni neft strategiyasının əsası qoyulmuş və dünyanın iri transmilli neft şirkətlərinin Azərbaycana marağı artmışdır. XXI əsrin ən böyük layihəsi olan "Bakı-Tbilisi-Ceyhan"ın reallaşması ilə neft-qaz kompleksinin ölkənin sosial-iqtisadi inkişafına töhfəsi daha da artmışdır. Bütün bunlar sahə məhsulunun rəqabət qabiliyyətinin yüksəldilməsinə real imkanlar yaratmışdır.
- Müəyyən olunmuşdur ki, neft-qaz kompleksində istehsalın səmərəliliyinin yüksəldilməsi yataqların işlənməsi və istismarına əsaslı vəsait qoyuluşu həcminin müntəzəm surətdə artırılmasını, fasiləsiz olaraq yeni neft-qaz quyularının istismara verilməsini, dayanmış köhnə quyuların bərpasını və istismara qaytarılmasını tələb edir. Təyin olunmuşdur ki, layihə-tədqiqat işlərinin başlanmasından ilkin neft və qazın alınmasına qədər müddət orta hesabla 4–6 il təşkil edir, odur ki, rəqabətqabiliyyətli məhsul istehsalı müəyyən risklərlə bağlıdır. Neft-qaz kompleksində mövcud olan risklər təsnif edilərək onların azaldılması yolları göstərilmişdir.
- Neftin texnoloji hazırlanması prosesinin xüsusiyyətlərinin hərtərəfli araşdırılması nəticəsində emal zamanı material resurslarından səmərəli istifadənin və məhsulun keyfiyyətinin yüksəldilməsi yolları göstərilmişdir. Təyin olunmuşdur ki, istehsalın səmərəliliyinin artırılması, keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı neft və qazın emalının əlverişli təşkilindən, məhsulun sonrakı istifadə mərhələsi və müştərək sahələrdə texniki tərəqqinin həyata keçirilməsindən asılıdır. Məhsulun keyfiyyəti ilə maya dəyəri, habelə digər amillər arasındakı əlaqələr öyrənilmiş və riyazi-statistik modelləşdirmənin köməyi ilə ən vacib amillərin keyfiyyətə təsir dərəcəsi müəyyən edilmişdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalə və tezislərdə dərc olunmuşdur:**

1. K.S. Dadaşova. Keyfıyyətin idarə edilməsinin bəzi aspektləri. ADIU-nun professor-müəllim və aspirant heyətinin 2004-cü ilin elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransının materialları, Bakı, 2005.səh.106-108

2. K.S. Dadaşova, F.Qurbanova. Məhsulun keyfiyyətinə nəzarətin aparılma qaydaları. ADİU-nun tələbə elmi cəmiyyətinin «Azərbaycan iqtisadiyyatının davamlı inkişafı» mövzusunda elmi konfransının materialları.Bakı: İqtisad Universiteti nəşriyyatı, 2006.səh.225-226

3. İ.M. Seydəliyev, K.S. Dadaşova. Keyfiyyətin idarə edilməsinin müasir inkişaf istiqamətləri. 2005–2006-cı illərdə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2007.səh.314-320

4. K.S. Dadaşova. Neft-qaz kompleksində məhsulun keyfiyyət amili və innovasiya. Elmi-tədqiqat, təcrübə-konstruktor işlərinin və müdafiə olunmuş dissertasiyaların dövlət qeydiyyatı mərkəzi. İnnovasiya inkişafı. Problemlər və nəticələr.I beynəlxalq elmi-praktiki konfransın materialları.Bakı: Elm , 2007.səh.49-51

5. K.S. Dadaşova. Neft-qaz kompleksində risklərin idarə edilməsi. Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi problemləri üzrə mütəxəssislərin «Fövqəl Assosasiyası»nın 10 illik yubileyinə həsr olunmuş «Fövqəladə hallarda təhlükəsizliyinin idarə olunması» IV Beynəlxalq simpoziumun materialları. Bakı, Ti–Media, 2007.səh.107-109

6. K.S. Dadaşova. Neft-qazçıxarmada məhsulun,işin keyfiyyəti və onun göstəriciləri. 2006–2007-ci illərdə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2008.səh.375-377

7. Q.Ə. Səfərov, K.S. Dadaşova. Yeni neft siyasəti və sosial iqtisadi problemlərin həlli. AMEA-n Xəbərləri, İqtisadiyyat elmləri seriyası, № 4, 2008.səh.17-22

8. Q.Ə. Səfərov, K.S. Dadaşova. Neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabətqabliyyətliliyinə təsir edən amillər. AMEA

İqtisadiyyat İnstitutu. Elmi əsərlər, IV buraxılış. Bakı: Elm, 2008.səh.326-331
9. Г.А. Сафаров, К.С. Дадашова. Экономические вопросы улучшения качества продукции. Международный журнал, №2, 2009, Москва,səh.23-28
10. K.S. Dadaşova. Neft-qaz kompleksində ətraf mühitin mühafizəsinin təmin edilməsi və ekologiya. AMEA Geologiya İnstitutu «Yer elmləri sahəsində tədqi-qatların yeni istiqamətləri ». Gənc alim və tələbələrin üçüncü beynəlxalq elmi konfransının tezisləri.Bakı, Nafta–Press nəşriyyatı,2009.səh.18-19
11. Q.Ə. Səfərov, K.S. Dadaşova. Məhsulun rəqabətqabliyyətliliyi-nin əsas əlamətləri. 2008-ci ildə ADİU-nun büdcə təyinatlı elmi tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı: İqtisad Universiteti nəşriy-yatı,2009.səh.565-566
12. K.S.Dadaşova. Respublikada neftmaşınqayırma məhsullarının sertifikatlaşdırılmasının əsas istiqamətləri. 2008-ci ildə ADİU-nun büdcə təyinatlı elmi tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2009.səh.453-454
13. K.S. Dadaşova. Azərbaycan iqtisadiyyatında neft sənayesinin rolu. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Aspirantların və gənc alimlərin XIII Respublika elmi konfransının materialları.Bakı, İqtisad Universiteti nəşriyyatı, 2009.səh.127-129
14. K.S. Dadaşova. Neft-qaz kompleksində keyfiyyətin idarə edilməsinin müasir inkişaf istiqamətləri. İqtisad elmləri:Nəzəriyyə və praktika (rüblük nəzəri və elmi-praktiki jurnal), № 3–4, 2008, Bakı.səh.103-108
15. Q.Ə. Səfərov, K.S. Dadaşova. Neft qaz kompleksində keyfiyyət göstəriciləri. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elmi Tədqiqatlar İnstitutu. Elmi əsərlər, №12, 2009.səh.149-154
16. K.S. Dadaşova. Keyfiyyətə nəzarət və İSO beynəlxalq standartlar sistemi. AMEA İqtisadiyyat İnstitutu.Elmi əsərlər.III buraxılış.Bakı: Elm, 2009.səh.220-225
17. K.S. Dadaşova. Neft-qaz sənayesi və regionların sosial-iqtisadi inkişafına dair. Azərbaycan iqtisad elminin görkəmli nümayəndəsi, iqtisad elmləri doktoru, professor M.M. Allahverdiyevin anadan

olmasının 80 illiyinə həsr olunmuş elmi-nə-zəri konfransın materialları.Bakı: Elm, 2010.səh.104-106
18. K.S. Dadaşova. Neft-qaz kompleksi müəssisələrində keyfiyyət sisteminin fəaliyyətinin təmin edilməsi. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransının materialları. Bakı: ADİU nəşriyyatı, 2010.səh.92-93
19. K.S.Dadashova. Provision quality of equipment of oil and gas indastri / International Ecoenergi Academy Scientific-Manufacturing Association "Gunesh". Presiding of the tenth Baku International Congress "Energy, Ecology, Economy" Baku, 2009.p462-463
20. Q.Ə. Səfərov, K.S.Dadaşova. Məhsulun keyfiyyət göstəricisi meyarının əsaslandırılması // İqtisadiyyat və həyat ( elmi-nəzəri, təcrübi aylıq jurnal ).№3 (556), Bakı, 2010.səh.39-45
21. Г. А Сафаров, К. С. Дадашова. Подготовка нефти и качество продукции. Экономика, социология и право. № 7, 2010, Москва.səh. 34-39
22.K.S. Dadaşova. Rəqabətqabiliyyətli neft-mədən avadanlığı istehsalının ekoloji aspektləri.Azərbaycan Texniki Universiteti.Elmi əsərlər.Elmi-texniki jurnal.№3,Bakı,2010.səh.83-86
23.Q.Ə.Səfərov, K.S. Dadaşova. Keyfiyyətin yüksəldilməsinə yönəldilmiş tədbirlərin əsaslandırılmasına dair iqtisadi səmərənin hesabatı. 2009-cu ildə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2010.səh.439-440
24. K.S. Dadaşova. İqtisadi səmərə və məhsulun keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş tədbirlər. 2009-cu ildə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2010.səh.352
25. N.R. Məmmədov, M.N. Hacızalov, K.S. Dadaşova. Keyfiyyət sistemləri. Bakalavr hazırlığı üçün tədris proqramı. Bakı: ADİU nəşriyyatı, 2011.13s
26. Q.Ə. Səfərov, K.S. Dadaşova Neft-qaz komplleksində ekoloji problemlərin həlli istiqamətləri. 2010-cu ildə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr

edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2011.səh.223-224
27. K.S. Dadaşova. Neft-mədən avadanlıqlarının istismarı mərhələsində keyfiyyətin təmin edilməsi. 2010-cu ildə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2011.səh222-223
28. Основные признаки конкурентоспособности и затраты на продукции. Нефть, газ и бизнес. Информационно-аналитический журнал. №7, 2011, Москва.səh. 27-30
29.K.S. Dadaşova. Susuzlaşmanın və neft emulsiyalarının yaranması səbəblərinin təhlili. 2011-ci ildə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2012.səh.300-301
30.Q.Ə. Səfərov, K.S. Dadaşova. Məhsulun keyfiyyətinə və rəqabətqabiliyyətinə duz və mexaniki qarışıqların təsiri haqqında. 2011-ci ildə ADİU-da yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, İqtisad Universiteti, 2012.səh.301-303

**Камала Сейфулла кызы Дадашова**

## Организационно-экономические вопросы повышения конкурентоспособности продукции в нефтегазовом комплексе

## Резюме

Диссертационная работа посвящена организационно-экономическим вопросам повышения качества и конкурентоспособности продукции в нефтегазовом комплексе Азербайджанской Республики. Целью работы является разработка научно-обоснованных предложений и рекомендаций, направленных на повышение качества и конкурентоспособности продукции на основе анализа эффективности производства в нефтегазовом комплексе.

В первой главе рассмотрено современное состояние развития нефтегазового комплекса Азербайджана и качество выпускаемой продукции. Анализирован роль и значение нефтегазового сектора в социально-экономическом развитии страны. Рассмотрены вопросы надежности нефтепромыслового оборудования и качества нефтепродуктов.

Во второй главе рассмотрены теоретико-методологические основы повышения качества и конкурентоспособности продукции в нефтегазовом комплексе. Анализированы системы показателей качества нефтепромыслового оборудования и особенности управления качеством продукции. Установлены основные признаки конкурентоспособности продукции и структура производственных расходов нефтегазодобывающих предприятий.

В третьей главе определены основные направления повышения качества и конкурентоспособности нефтепромыслового оборудования. Особое внимание уделено экологическому обеспечению технологических процессов при переработке нефтепродуктов. Сформулированы технико-экономические и организационные мероприятия и выработаны научно-обоснованные предложения и рекомендации направленные на повышение качества и конкурентоспособности продукции в нефтегазовом комплексе Азербайджанской Республики.

**Dadashova Kamala Seyfulla**

## Increasing of managerial-economical matters of competitive ability of equipments in oil and gas field

### SUMMARY

The thesis is about increasing of managerial-economical matters for improvement of quality and competitive ability in oil-gas field of The Republic of Azerbaijan.

The aim of the thesis is exploitation of scientific-based proposals and recommendations directed for development of quality and competitive ability of equipment in oil-gas field on base of production efficiency analysis.

In the first chapter there was reviewed a development of contemporary condition of oil-gas field of Azerbaijan and quality of made production. And analyzed a role and essence of oil-gas sector in social-economical development of the country. There was also reviewed reliability matters of oil field equipment and quality of oil products.

In the second chapter there was reviewed theoretical-methodical foundations of increasing quality and competitive ability products in oil-gas complex. And analyzed ways of quality criterion of oil field equipment and management features of the products quality controlling.

There were defined main features of competitive ability of the products and structure of production expenses of oil-gas producer enterprises.

Main directions of increasing quality and competitive ability of oil field equipment were defined in the third chapter. Ecological protection in technological processes during oil refining products was specially stressed. Technical-economical and managerial action, and made up scientific-base offers and recommendations directed towards quality increasing and competitive ability in oil-gas field in The Republic of Azerbaijan.

Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,6
Tiraj 100
AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**КАМАЛА СЕЙФУЛЛА кызы ДАДАШОВА**

# ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКИЕ ВОПРОСЫ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРОДУКЦИИ В НЕФТЕГАЗОВОМ КОМПЛЕКСЕ

**Специальность: 5312.01 – Отраслевая экономика**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**БАКУ – 2013**